# “Dərələyəzin Aşıq Ələsgəri” – Aşıq Cəlil

**XIX əsrin sonu – XX əsrin əvvəllərində Qərbi Azərbaycanın Dərələyəz mahalının Sallı kəndində yaşayan aşıq və şairlərin başında Aşıq Cəlil durur. Aşıq Ələsgər Göyçənin ən ünlü aşığı olduğu kimi, Cəlil də Dərələyəzdə ustad aşıq sayılıb. Aşıq Cəlil Sallı kəndinin sənətkarları arasında həm də məşhur bəstəçi aşıq olub. Hələ uşaq vaxtlarından Aşıq Cəlil saza-sözə könül verib. Aşıq Cəlil gözünü açıb Dəllək Xələfi, Aşıq Əsədi, digər aşıq və şairləri görüb.**



Toy-düyündən savayı, Sallı kəndində şeir məclisləri də keçirərmişlər. Buraya Göyçədən, Cığın dərəsindən (Vedi rayonunun ərazisi), Zəngəzurdan, Naxçıvandan, İrandan aşıq və şairlər gələrmiş. Bu şeir məclislərində şeirdən, sənətdən söhbət edər, deyişərmişlər. Belə məclislərdə bir bağlama növü də məşhur imiş. Bağlamanın bu növündə bir əşyanın, ya da heyvanın və s. nişanələri sadalanır. Bu, bir növ tapmacanı da xatırladır. Özü də bağlama bir adama deyil, bütün məclisə deyilir. Hər kim üç kərə belə şeirləri açsa, o, həmin məclisin ustadı hesab olunarmış. O da adnan söylənərmiş ki, filan məclisin ustadı filankəs olub.

Cəlilin atası Mehralı kişi də saz-söz həvəskarı imiş və o da şeir məclislərinə gedər, hərdənbir balaca Cəlili də özü ilə apararmış. Cəlil aşıqlara fikir verər, bir-birindən gözəl deyimləri, söyləmələri sinədəftər edərmiş. Günlərin bir günü şeir məclislərinin birində İrandan gəlmiş Aşıq Abbas gözəlləmə üstündə bir şeir oxuyur. Cəlil onun cavabını birinci tapır. Aşıq Abbasın 16 yaşlı Cəlildən xoşu gəlir, sonra Cəlili bir-iki ağız oxutdurur, çalğısına qulaq asır.

– Hə, – deyir, mən oğlanı şəyirdliyə götürərdim.

Mehralı kişi əvvəl razı olmur:

– Ustad, bir çətən külfətim var, təzə-təzə əlimdən tutur.

Mehralı kişi sonra kənd ağsaqqallarının təvəqqesini yerə salmır. Aşıq Abbas Cəlili özü ilə barabər İrana aparır. Ona ancaq yay aylarında ayyarımlığa Mehralı kişiyə kömək eləməyə izn verir. Qalan vaxtlar Aşıq Abbasla gəzir. Dörd il keçir, beş deyəndə Aşıq Abbas böyük bir məclis düzəldir, şəyirdini axırıncı dəfə imtahana çəkir, ona bir saz da bağışlayıb, get, – deyir, verdiyim çörək sənə halal olsun.

Elə o vaxtdan Aşıq Cəlilin adı qonşu mahallara yayılır. Hamı Aşıq Cəlili öz şənliyinə aparmağa çalışarmış. Aşıq Cəlilin bu məşhurluğu Aşıq Ələsgərə də çatır. Üstündən bir il keşməmiş eşidir ki, Aşıq Cəlili Göyçəyə toya gətiriblər. Aşıq Ələsgər atlanıb həmin kəndə yola düşür, kəndə çatana kimi Cəlil toyu qurtarıb Sallıya qayıdır. Axşam yatıb səhərisi Naxçıvana toya gedir. Aşıq Ələsgər də o yandan fikirləşir ki, yox, belə olmaz. Çəlillə deyişməliyəm. O fikirlə də Dərələyəzə çapar göndərib Cəlili evinə qonaq çağırır.

Qonaq çağırmaq isə aşıqlarda, əslində, deyişməyə çağırılmaq demək imiş. Çapar sözünü deyib



qayıdır. Aşıq Cəlil kəndə qayıdanda məsələdən halı olub Göyçəyə hazırlaşır. Kənd camaatı onu buraxmaq istəmir ki, gedib el içində xar olub qayıdacaq. Aşıq Cəlil fikir verməyib atlanır. Ağkilsəyə çatıb Ələsgərin evini soruşur. Evi nişan verirlər. Yaxınlaşıb görür ki, bir kişi həyətdə araba taqqıldadır.

– Ay əmi,– deyir, – Ələsgərin evi budurmu?

– Budur, neynirsən Ələsgəri?

– Cəlil qayıdır ki:

– Məni qonaq çağırıb.

Ələsgər görür ki, bu, Cəlildi, amma onun belə cavan olduğunu bilmirmiş.

Ələsgər Cəlillə səmimi görüşüb onu evə dəvət edir. Axşam məclis qurulur. Ələsgər meydanı Cəlilə verir. O, sazını “Məclis divanisi” havasına kökləyir. Sonra “Osmanlı divanisi” çalır. “Ustadnamə”nin axırıncı gülünü vuranda Ələsgər görür ki, Cəlil kamil aşıqdı. Onun çalğısı, oturuşu, duruşu Ələsgərə çox xoş gəlir.

Cəlil sonra qoşduğu təzə havacatını çalır. Hava Ələsgərə tanış gəlmir. Soruşur ki, oğul, bu nə havadı çalırsan? Aşıq Cəlil qayıdır ki, dədə, bunu özüm qoşmuşam. Burda Ələsgər yaxına gəlir:

– Oğul, – deyir, bu hava innən belə sənin adınnan qaldı: “Cəlili”.

Bu hava hazırda Əmrah Gülməmmədovun ifasında radionun səs xəzinəsində saxlanılan “Cəlili” havasıdır (əsl adı “Orta Cəlili”dir). Sonralar Cəlil “Baş Cəlili” və “Ayaq Cəlili” havalarını da yaradır. Elə o görüşdən də Ələsgərlə Cəlilin dostluğu başlayır, ta ölən günəcən davam edir.

Aşıq Cəlilin nəvəsi Aşıq Mirzalının dediyinə görə, babası Cəlilin 12 saz havası olub. Aşıq Mirzalı yeddisinin adını bilir: “Baş Cəlili”, “Orta Cəlili”, “Ayaq Cəlili”, “Qəhrəmanı”, “Dərələyəz gəraylısı”, “Qaytarma” və “Badamı”...

Vedibasardan olan, Bərdənin Kətəlparaq kəndində yaşayan Aşıq Əşrəf Rzayevdən çox illər əvvəl aldığım məlumat da maraq doğurur. Onun dediyinə görə, “Sallama gəraylı”, “Şahsevəni” (Aşağı kökdə “Yurd yeri”) qəmli havası, “İrəvan çuxuru”, “Heydəri” (“Kərəmi ilə “Ruhani”nin tərsi kimi) və “Göyçə gülü” havaları da Aşıq Cəlilindi.

Aşıq Əşrəf belə də dedi: “Aşıq Cəlil “Gəraylı” oxuyanda damdan torpaq tökülərmiş, Cəlil oxuyan məclisin kənarına hamilə qadınları buraxmazmışlar”. Aşıq Əşrəfin bildirdiyinə görə, Aşıq Cəlil “Gəraylı”, “İran gəraylısı” və öz yaratdığı “Sallama gəraylı” havalarının hər birini başqa səslə oxuyarmış, kənardan eşidənlər elə biliirmiş ki, bu havaları ayrı-ayrı aşıq oxuyur.

Neçə illər əvvəl Naxçıvanın Kültəpə və Məmmədrzabəy Dizəsi kəndlərində görüşdüyüm ixtiyar kişilər də Aşıq Cəlil vəfat edəndə yaşlı adam olduğunu bildiriblər. Aşıq Cəlilin doğum tarixi bilinsə də, ölüm tarixi dəqiq deyil. Beləliklə, 1868-ci ildə Dərələyəzin Sallı kəndində doğulan Aşıq Cəlil Babək rayonunun Kültəpə kəndində 1920-1930-cu illərdə vəfat edib.

Onu da deyək ki, Aşıq Cəlilin oğlu Bəhmən də aşıqlıq edib, Naxçıvanda sayılan aşıqlardan olub. Aşıq Bəhmən II Dünya müharibəsindən qayıtmayıb. Aşıq Cəlil Naxçıvanın Kültəpə kəndində vəfat edib, qonşu Məmmədrzabəy Dizəsi kəndinin qəbiristanlığında dəfn olunub. Niyə Məmmədrzabəy Dizəsi qəbristanlığında, ona görə ki, Kültəpədə azərbaycanlıların qəbiristanlığı olmayıb, kənddə ermənilər də yaşadığından ermənilərin, nənəm demiş, gavursanlığı olub, bu kənddə vəfat edənləri də Məmmədrzabəy Dizəsi kəndinin qəbiristanlığında dəfn edirmişlər.

Xatırladaq ki, 2018-ci il dekabrın 26-da Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu, Azərbaycan Aşıqlar Birliyi və “Dərələyəz” vətənpərvərliyin təbliği ictimai birliyinin təşkilatçılığı ilə Aşıq Cəlilin anadan olmasının 150 illiyinə həsr edilmiş “Dərələyəzli ustad Aşıq Cəlil” mövzusunda elmi-praktik konfrans keçirilib, bu haqda KİV-də geniş materiallar verilib.

**Qulu KƏNGƏRLİ,**
**tədqiqatçı jurnalist**

Xalq qəzeti .- 2023.- 11 yanvar.- S.9.